# Güclü idarəçilik, uzaqgörənlik və milli maraqlara sadiqlik Heydər Əliyevin liderlik üslubunun əsas dayaqları idi

**Heydər Əliyev Azərbaycan dövlətçiliyinin banisi kimi xalqın yaddaşında silinməz iz qoymuş bir liderdir. O, ən çətin tarixi dönəmlərdə ölkəni parçalanma və xaosdan çıxarmağı bacararaq müstəqil dövlətin möhkəm təməllərini qurdu. Onun siyasəti yalnız bu günün yox, gələcək nəsillərin inkişafını hədəfləyirdi. Güclü idarəçilik, uzaqgörənlik və milli maraqlara sadiqlik Heydər Əliyevin liderlik üslubunun əsas dayaqları idi.**

Müasir müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi və inkişafı Heydər Əliyevin tarixi xidmətləri ilə birbaşa bağlıdır. XX əsrin sonlarında ölkəmizin qarşısında duran ən çətin və taleyüklü məsələ dövlətçiliyin qorunub saxlanması idi. Məhz belə bir vaxtda Heydər Əliyevin siyasi səhnəyə qayıdışı Azərbaycan üçün dönüş nöqtəsi oldu. Onun rəhbərliyi ilə ölkədə sabitlik yaradıldı, vətəndaş qarşıdurmasının qarşısı alındı və dövlət institutları yenidən formalaşdırıldı.

Heydər Əliyev müasir Azərbaycanın siyasi və ideoloji əsaslarını müəyyənləşdirən lider kimi tanınır. Onun irəli sürdüyü azərbaycançılıq ideyası xalqı birləşdirən, milli kimliyi gücləndirən əsas ideoloji dayağa çevrildi. Bu ideya Azərbaycanın çoxmillətli və tolerant cəmiyyət quruculuğunda mühüm rol oynadı. Heydər Əliyevin siyasi xətti ölkənin müstəqilliyinin dönməzliyini təmin etməyə yönəlmişdi və bu istiqamətdə atdığı addımlar uzunmüddətli inkişafın fundamentini formalaşdırdı.

Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kurs bu gün də Azərbaycanın inkişafının əsas xəttini təşkil edir. Onun siyasi irsi modern, güclü, beynəlxalq arenada öz sözünü deyən dövlət modelinin formalaşmasında həlledici rol oynayıb. Buna görə də Heydər Əliyev müasir müstəqil Azərbaycanın memarı, banisi və ideoloji lideri kimi tarixə əbədi həkk olunub.

1993-cü il iyunun 15-nə kimi Azərbaycanda baş verən ictimai-siyasi proseslər respublikanı böhran vəziyyətinə, parçalanmaq səviyyəsinə və müstəqilliyin itirilməsi həddinə gətirib çıxarmışdı. 1980-ci ilin ikinci yarısında keçmiş SSRİ-də hakimiyyət başına gələn M.S.Qorbaçovun Azərbaycana, xalqımıza, ümummilli liderimiz Heydər Əliyevə düşmən münasibəti ağır nəticələrə səbəb olmuşdu. 1992-ci ilin martında Azərbaycanda siyasi gərginlik daha da artmışdı. Belə bir vəziyyətdə ermənilər tərəfindən Azərbaycan torpaqlarının işğalı genişlənmişdi. Hərbi quruculuq işi olduqca aşağı səviyyədə idi. Nizami ordu yaradılmamışdı. Hərbi əməliyyat planları peşəkar hərbçilər tərəfindən deyil, diletantlar, həvəskarlar tərəfindən işlənib hazırlanırdı. Ordunun əsas hissəsi könüllülərdən ibarət olduğundan çox hallarda döyüşçülər nizami ordunun tələblərinə, nizamnamə qaydalanna əməl etmirdilər. Fərarilik və təxribat geniş miqyas almışdı. Müvafiq inzibati orqanlar buna qarşı heç bir tədbir görmürdü. Orduya rəhbərlik dözülməz halda idi. Son iki ildə bir neçə müdafiə naziri dəyişmişdi. Qərargah rəisləri, alay komandirləri, korpus komandirləri tez-tez dəyişilirdi. Belə vəziyyətdə torpaqların işğalı davam edirdi. Heç bir idarəçilik təcrübəsi olmayan, mitinq tribunasından hakimiyyətə gələn cəbhəçilər Azərbaycanı daha fəlakətli vəziyyətə saldılar. Azərbaycan xalqı xilas yolunu yalnız Heydər Əliyevdə görürdü. Onun respublikaya qayıtmasını təkidlə, qətiyyətlə tələb edirdilər. Lakin nə keçmiş kommunist rəhbərləri, nə də silahlı çevriliş yolu hakimiyyətə gələn yalançı demokratlar - Xalq Cəbhəsinin liderləri Heydər Əliyevin gəlməsinə tərəfdar deyildilər. Onları nə xalqın, nə də dövlətin taleyi maraqlandırırdı.

Təcrübəsizlik, bacarıqsızlıq, səriştəsizlik nəticəsində ölkədə iqtisadi böhran dərinləşmiş, xalqın həyat şəraiti xeyli aşağı düşmüş, beş ildən artıq bir müddətdə davam edən böhran 1993-cü ilin əvvəlindən daha da dərinləşməyə başlamışdı. Ölkə idarəedilməz vəziyyətə salınmışdı. Azərbaycan Respublikasını dağılmaqdan, dövlətçiliyi məhv olmaqdan, ölkəni etnik prinsiplərə əsasən parçalanmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən, mənəvi - psixoloji sarsıntıdan qurtarmaq üçün xalq öz xilaskarı Heydər Əliyevə müraciət etdi. Xalq qətiyyətlə onun siyasi hakimiyyətə qayıtmasını tələb edirdi. Xalq yaranmış vəziyyətdən çıxış yolunu böyük təcrübəyə malik görkəmli dövlət və siyasi xadim, Azərbaycanın böyük oğlu Heydər Əliyevin şəxsində görürdü.

Naxçıvanda bütün Azərbaycanın müqəddəratı üçün taleyüklü fəaliyyət göstərən Heydər Əliyevin yanına dəstə-dəstə adamlar - nümayəndələr gəlir, teleqramlar göndərilirdi. "Xalq Cəbhəsi" - "Müsavat" rejimi ölkəni saldıqları ağır vəziyyətdən çıxarmaqda aciz olduqlarından, yaratdıqları problernləri həll etməkdən çıxış yolu tapa bilmədiklərindən, xalq və tarix qarşısında məsuliyyətdən qorxaraq xalqın ədalətli tələbi qarşısında dayana bilmədilər.



Beləliklə, İyunun 15-də ümummilli lider Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ulu Öndər problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu.

Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider Azərbaycan Respublikasının Prezidenti seçildi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi.

Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı.

Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əminamanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda xüsusilə ordu quruculuğunda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır.

Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib.

Bütün həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub. Heydər Əliyev fenomeninə məxsus iti zəka, müdriklik, uzaqgörənlik və əzmkarlıq ona əvəzsiz ümummilli lider mövqeyi qazandırıb. Çoxşaxəli və zəngin fəaliyyəti, misilsiz insani keyfiyyətləri sayəsində o, zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyinin təminatçısı kimi qəbul edir.

Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin zəngin irsinə böyük hörmətlə yanaşır, onu qoruyur və ondan bəhrələnir. Bu gün Ümummilli Liderin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycan Respublikasının müstəqil dövlətçilik tarixinə yeni şanlı səhifələr yazır və bundan sonra da müasir tariximizin yeni səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

***Gülşəndə MAMEDOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı elmi işçisi***